Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F.Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Bakımızı tanıyaq

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F.Köçərli adına
Respublika Uşaq Kitabxanası

# Bakımızı tanıyaq

Respublika Uşaq Kitabxanaları
üçün tövsiyə biblioqrafiyası

**Bakı-2018**

**Tərtibçi:** **Nazilə Tahirova,**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,**
*Əməkdar mədəniyyət işçisi*

**Bakımızı tanıyaq:** tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova; red. və bur. məs. Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2018.-45 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Bakı - müstəqil Azərbaycan Respublikasının paytaxtı, böyük elmi-mədəni və sənaye mərkəzidir. Bakı qədimliyinə, ərazisinin böyüklüyünə və əhalisinin sayına görə Şərqin qocaman və ən böyük şəhərlərindən biridir.

Bakı şəhərində və Abşeron yarımadasında insanlar çox qədim zamanlardan məskunlaşmış və burada yaşayış məntəqələri yaratmışlar. Buna səbəb Bakı şəhərinin fiziki-coğrafi şəraiti şimaldan-cənuba, qərbdən-şərqə gedən miqrasiya və ticarət yollarının kəsişməsi mərkəzində yerləşməsi (“İpək Yolu”), iqlim şəraiti və ən qədim zamanlardan yer üzünə çıxan nafta adlanan yanacaq və enerji sərvəti olmuşdur.

Bakı haqqında ilk dəfə eramızdan 3500 il əvvəl birinci Misir Faraonu Menesanın dövründə “Ölülər Kitabı”nda qeyd edilmişdir. Eləcə də Bakının qədim şəhər olmasını Abşeronda və Qobustanda 12 min il tarixi olan daş üzərində yazmalar, arxeoloji tapıntılar, eyni zamanda eramızdan əvvəl I əsrdə Roma imperatoru Pompeyin və Lukullun Zaqafqaziyanın işğalı məqsədilə Bakının ətrafında (40 km cənub istiqamətində) saldıqları hərbi düşərgələr barəsində Avqust Qay Oktavi tərəfindən yazılmış daş yazısı sübutdur. Bu tarixləri nəzərə alsaq, bu gün Bakının 5,5 mindən çox yaşı vardır.

Bakı XII əsrdə Şirvanşahlar dövlətinin, XVI əsrdə Səfəvilər dövlətinin, XVII əsrdə Osmanlı imperiyasının, XVIII əsrdə isə Bakı xanlığının əsas şəhərlərindən biri olmuşdur.

Bakı şəhəri Abşeron yarımadasının cənubunda, Xəzər dənizinin sahilində yerləşir, onun ərazisi 2200 kv km, əhalisinin sayı 2 milyon 249 min 500 nəfərə yaxındır. Bundan başqa hazırda Bakı şəhərində erməni qəsbkarlarının işğal etdiyi rayonlardan və Ermənistan Respublikasından qovulmuş 500 minə yaxın qaçqın və məcburi köçkünlər yaşayır.

Bakı özündə 11 inzibati rayonu, 5 şəhər tipli qəsəbəni və 32 kəndi birləşdirir.

Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi **“Bakımızı tanıyaq”** adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar öz əksini tapmışdır. Vəsaitdə ədəbiyyat xronoloji prinsip əsasında, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç. 88;
**E-mail:** info@clb.az.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin yaradılması haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının maddi mədəniyyətinin əvəzsiz abidəsi olan İçərişəhəri qoruyub saxlamaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərində İçərişəhər tarix-memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında" 2003-cü il 17 fevral tarixli Sərəncamı imzalandıqdan sonra orada tikinti işləri dayandırılmış və şəhərin tarixi simasının qorunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilməyə başlanmışdır.

İçərişəhərin uzunmüddətli qorunması, konservasiyası və bərpasının davam etdirilməsi, daha da intensivləşdirilməsi, sistemli xarakter alması onun idarə olunmasının təkmilləşdirilməsini və mərkəzləşdirilməsini tələb edir.

İçərişəhərin Azərbaycan tarixi və mədəniyyəti üçün əhəmiyyətini, qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasının vacibliyini nəzərə alaraq, onun idarə edilməsini təkmilləşdirmək məqsədi ilə qərara alıram:

**1**.Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi yaradılsın.

**2**. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu Bakı şəhəri İcra Hakimiyyətinin və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindən çıxarılsın.

**3**.Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu və onun idarə edilməsi haqqında Əsasnamənin layihəsini 10 gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təsdiq edilmək üçün təqdim etsin.

4.Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

4.1.Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturunu və işçilərin say həddini müəyyən etsin;

4.2. Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

# Bakı haqqında müdrik kəlamlar

Azərbaycan xalqının milli sərvəti olan İçərişəhər tarix-memarlıq qoruğunun qorunub saxlanılması, geniş təbliğ edilməsi və gələcək nəsillərə çatdırılması Azərbaycan dövlətinin, hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

"Bakı gözəl şəhərdir. Bizim əcdadlarımız, Bakıda əsrlər boyu yaşamış insanlar gözəl şəhər yaradıblar, qurublar və bu günkü nəsillərə, gələcək nəsillərə bəxş ediblər.

"Şirvanşahlar sarayı Azərbaycan xalqının iftixar etdiyi tarixi memarlıq abidəsidir. Bu həm bizim memarlığımızın ən yüksək səviyyədə olduğunu göstərir, həm də dövlətçiliyimizin tarixini əks etdirən bir abidədir, kompleksdir və şübhəsiz ki, dünyada da məşhurdur."

**Heydər Əliyev,**
*Ümummilli lider*

Şərq dünyasının özünəməxsus və möhtəşəm abidələrindən biri Bakıda yerləşən, Azərbaycanın simvolu olan Qız Qalasıdır.

Bakı bütün dövrlərdə mədəniyyətlər və sivilizasiyalar arasında körpü olub.

Möhtəşəm tikililəri, tarixi abidələri, dar küçələri, qeyri-adi dalanları və müxtəlif daş “mənzərə”ləri ilə yaddaşımıza iz salan, həmişə bizi düşündürən bu ünvan -İçərişəhərdir.

Bəy, xan, qoçu, xanım, qulluqçu, mirzə görmək istəyən İçərişəhərə gəlsin....

Zəngin tarixə və mədəniyyətə malik Azərbaycan xalqının İçərişəhər, onun ərazisindəki Qız qalası, Qala divarları, Şirvanşahlar saray kompleksi, məscidlər, karvansara, bazar meydanı və s. kimi abidələr öz unikallığı ilə bəşər mədəniyyəti inciləri sırasında xüsusi yer tutur.Təəssüflər olsun ki, illər uzunu İçərişəhəri daş-daş, pillə-pillə sökərək xalqımızı tariximizin ən gizli qatlarını özündə yaşadan bu qiymətli abidədən məhrum etməyə çalışıblar. Lakin son dövrlər dövlət səviyyəsində görülən tədbirlər, belə demək mümkünsə, qədim abidəni xilas etdi.

Azərbaycan tarixinin qədim köklərə bağlılığını, onun yüksək mədəniyyət diyarı olmasını sübut edən xeyli abidələrimiz var ki, onlar qorunaraq nəsillərdən- nəsillərə ötürülmüşdür. Belə tarixi abidələrdən biri də tarixi yaddaşımızın canlı şahidi İçərişəhərdir.

Hər bir azərbaycanlının qürur mənbəyi, milli- mədəni sərvətimiz olan İçərişəhər açıq səma altında muzeydir.Yüzlərlə tarixi abidəni özündə cəmləşdirən bu qədim məkan, eyni zamanda, dünya sivilizasiyasının mərkəzlərindən biri, Azərbaycan xalqının dərin ənənələrə söykənən dövlətçilik quruluşunun simvolu, keçmişdə

qüdrətli Şirvanşahlar dövlətinin paytaxtıdır. İçərişəhər müasir Bakının mərkəzində qala divarları ilə əhatələnmiş qədim şəhər, yaşayış massivləri və özünəməxsus infrastrukturu ilə canlı tarixdir.

Şirvanşahlar saray kompleksi orta əsrlərin şəhərsalma tələblərinə uyğun olaraq qədim Bakı – indiki İçərişəhər relyefinin ən hündür yerində - içqalada yerləşir. Kompleksin əsas tikililəri olan saray binası və Divanxana Bakı təpəsinin tam zirvəsində ucaldılmışdır. Şirvanşahlar sarayından bəhs edən səyyahlar, yaxud da onun memarlıq təhlilini verən mütəxəssislər, bir qayda olaraq, kompleksin tərkibindəki Divanxana binasına üstünlük vermişlər. Gerçəkdən də Şirvanşahlar saray kompleksi yuxarıda Bakı qalasının tacı kimi yüksəlirdisə, Divanxana bu tacın ən dəyərli daş-qaşı idi.

Bakı ətrafı kənd və qəsəbələr, ümumilikdə Abşeron yarımadası tarixin müxtəlif dövrlərinə şahidlik edən abidələrlə zəngindir. Bu sırada qalalar xüsusilə diqqəti cəlb edir. Əzəmət, vüqar, yenilməzlik rəmzi olan qalalar xalqımızın öz torpağına necə bağlı olduğunun bir göstəricisi olmaqla yanaşı, həm də milli memarlıq ənənələrimizi özündə yaşadır.

# GİRİŞ

**Bakı**-Azərbaycan Respublikasının paytaxtıdır. Abşeron yarımadasında, Xəzər dənizinin qərb sahilində yerləşir.

Şəhərin mərkəzi hissəsi Bakı buxtasına pilləli enən amfiteatrda yerləşir. Bakının dəniz sahili hissəsi okean səviyyəsindən təqribən 28 m aşağıdır. Bakı rayonu ərazisində faydalı qazıntılardan neft, qaz, tikinti materialları hasil edilir, müalicə əhəmiyyətli mineral sular çıxır. Çoxlu palçıq vulkanı var. İqlimi quru subtropikdir. Orta temperatur yanvarda 3-4°C, iyulda isə 25-26°C-dır. İllik yağıntı 300 mm-dir. Bakı üçün güclü şimal küləyi -xəzri və cənub küləyi - gilavar səciyyəvidir.

Abşeron ərazisində tapılmış arxeoloji materiallar Bakının qədim yaşayış məskəni olduğunu sübut edir. Pirallahı, Zığ gölü ətrafı, Şüvəlan, Mərdəkan, Əmircan və s. yerlərdə e. ə. III-I minilliklərə aid arxeoloji materiallar tapılmışdır. Bakının salındığı tarix dəqiq məlum deyildir.

Bakı Qafqazda ən əhəmiyyətli turistik məkanlardan biri sayılır. 2014-cü ildə Bakı Forbes jurnalının rusiyalılar üçün biznes qurulması sahəsində ən cəlbedici keçmiş SSRİ şəhərlərinin reytinqində top onluğa düşüb. 2015-ci ildə Bakı Lonely Planet nəşrinin səyahət edilməli ən maraqlı məkanların reytinqində 7-ci sırada, New York Times qəzetinin "2015-ci ildə səfər etmək üçün dünyanın ən yaxşı yerləri" reytinqində isə 51-ci yerdə qərarlaşıb. Bakı adının mənşəyi haqqında müxtəlif fikirlər vardır. Bakı toponiminin qədimliyi haqqında ilk məlumata İvan Meşaninovun 1927-ci ildə Bakıda nəşr olunmuş "Eqipet i Kavkaz" adlı məqaləsində rast gəlmək olar. Fərziyyəyə görə, e.ə. III minilliyin sonlarına aid edilən "Ölülər kitabı" Misir mifologiyası toplusunda əksini tapmış "Bakhav" toponiminin Qafqazda formalaşmasıdır. Sözün kökü olan "Baka" – "Günəşin doğulduğu yer" və ya "Səhər şəfəqi" kimi iddia edilir. Bu toponim Böyük Qafqazın şərqində yerləşən Bakı ilə eyniləşdirilir.

Bəzi mənbələrə görə, Bakı adına isə ilk dəfə V-VIII əsr mənbələrində "Baqavan" və ya "Baquan", "Atşi Baqavan" və ya "Atşi Baqvan", yəni "Atəşi Baquan" kimi rast gəlinib. "Baqa" sözün kökü, "an" və "van" isə məkan bildirir. Toponim eramızın VII yüzilliyində bu ərazidə yaşamış "bakan" tayfası ilə əlaqələndirilir, bəzilərinin fikrincə isə "Bakuyə" sözündən götürülüb.

Bakının adlarından biri də fars dilindən yaranan "Badi Kubə" sözünün birləşməsindən yaranması ehtimal olunur. Fars dilindən tərcümədə "Küləklər şəhəri" mənası verən bu sözün məhz Bakının əsl adının olmasını bir çox tarixçilər iddia edir.

Professor Sara Aşurbəyli Bakının ən qədim adının "Xunsar" olduğunu yazır. Bu yazılışda olan toponimin tərtibi onun 3 min ildən artıq bir dövr ərzində mövcud olduğunu göstərir. "Xunsar"ın mənası "Günəşə doğru çevrilmiş" deməkdir.

Qafqazşünas Kerop Patkanov iddia edir ki, şəhərin adı lak sözü "Baki"dən (təpə deməkdir) əmələ gəlir. Bu hipotezə görə, Bakı təpələr üstündə salındığından, şəhərin də adı bu sözdən götürülmüşdür. Bu fikri coğrafiya elmləri doktoru Budaq Budaqov da iddia etmişdir.

## Mədəniyyəti

***Musiqi:*** XIX əsrin sonlarında Bakı ziyalılarının musiqi əyləncəsinin əsas forması evlərdə təşkil olunan musiqi axşamları çərçivəsindən kənara çıxmış həvəskar musiqi idi. Musiqi həvəskarları yerli musiqiçilərin, hərbi kapelmeysterlərin, musiqi müəllimlərinin iştirakı ilə kütləvi konsertlər (çox vaxt xeyriyyəçilik məqsədi ilə) təşkil edirdilər.

Bakılıların eşitdiyi ilk opera Aleksey Verstovkinin 1889-cu ilin mayında D.Aqryonov-Slavyanskinin kapellasının konsert ifasında təqdim etdiyi "Askoldun məzarı" operası olmuşdur. Həmin il dekabrın 5-də qastrola gəlmiş Tiflis opera truppasının ifasında

Bakıda ilk peşəkar opera tamaşası göstərildi. Açılışda Aleksandr Darqomıjskinin “Su pərisi” tamaşaya qoyulmuşdu.Truppada İoakim Tartakov, Varvara Zarudnaya, Tatyana Lyubatoviç kimi məşhur müğənnilər oxuyurdu. 1894-cü il mayın 16-da Peterburq truppasının ifasında Bakıda ilk peşəkar balet tamaşası göstərildi. Açılışında A.Adanın “Dəniz qulduru” baletinin tamaşası göstərilmişdi. Mayın 16-dan 20-dək göstərilən beş tamaşanın arasında Adolf Adamın "Jizel" və Leo Delibin “Koppeliya” baletləri də vardı.

Bakı musiqiçiləri öz qüvvələrini birləşdirmək üçün 1895-ci ildə teatr və musiqi şöbələri, həvəskar orkestr yaratdılar. Bu orkestr F. Parizekin başçılığı altında 1897-ci ildə Bakıda ilk simfonik konsert mövsümünü açdı.

1908-ci il yanvarın 12-də Üzeyir Hacıbəyovun “Leyli və Məcnun” operası Bakıda səhnəyə qoyulmuşdur. Bu Müsəlman



Şərqinin ilk operası idi. Bakı 1950-ci illərdən başlayaraq “Caz şəhəri” kimi də tanınır. Şəhər 11 dəfədən çox beynəlxalq caz festivalına ev sahiblik edib. 2012-ci ildə Bakı şəhərində 57-ci Avroviziya Mahnı Müsabiqəsi təşkil olunub. Bakıda bir çox musiqi janrları, o cümlədən, meyxana, 1960-cı illərdə Caz-muğam, 1980-ci illərin ortalarında rus şansonundan yaranan “Bakı şansonu” yaradılıb. Şəhərin mühüm musiqi səhnələrindən Bakı Kristal Zalı, Heydər Əliyev Sarayı, Azərbaycan Dövlət Akademik Filarmoniyası və Beynəlxalq Muğam Mərkəzini qeyd etmək olar.

***Təhsil:*** 1865-ci ildə Azərbaycanda ilk gimnaziya Bakı şəhərində təşkil olundu. 1901-ci il oktyabrın 7-də Bakıda Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbi yaradılmışdır. Bu bütün Zaqafqaziyada yeganə qızlar məktəbi idi. 1910-cu ilə qədər Bakıda

cəmi iki orta ümumtəhsil məktəbi vardı: realnı məktəb və gimnaziya.




2013-cü ildə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində 311 tam orta, 3 ümumi orta, 7 xüsusi, axşam (qiyabi), 4 sağlamlıq imkanları məhdud uşaqlar üçün məktəb var idi. Bu məktəblərdə 318 min 750 şagirdin təlim-tərbiyəsi ilə 29949 müəllim məşğul olur. Bakının tanınmış ali təhsil müəssisələrindən Azərbaycan Dövlət İqtisad Universiteti, Xəzər Universiteti, Bakı Dövlət Universiteti, ADA Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Tibb Universitetini qeyd etmək olar. Böyük Britaniyanın "Quacquarelli Symonds" şirkəti 2018-ci il üçün dünya universitetlərinin reytinqində Xəzər Universiteti 701-750-ci, Bakı Dövlət Universiteti isə 801-1000-ci yerləri bölüşdürür.

# Bakı şəhərinin tarixi mədəniyyət abidələri



Bakı öz tarixinə görə qədim şəhər olduğundan, burada müxtəlif dövrlərə aid çoxlu sayda tarixi və memarlıq abidələri vardır.

Bakı şəhərinin mərkəzində sahəsi 22 ha. olan "İçərişəhər" yerləşir. Xalq arasında həm də "Qala" və ya sadəcə "Qədim şəhər" kimi tanınan tarixi məhəllə Bakının ən qədim hissəsi, həmçinin tarixi-memarlıq qoruğudur. Bakının ən qədim hissəsi olan İçərişəhər, yaxşı qorunmuş qala divarları ilə əhatə olunub. 221 000 m² sahəyə malik olan qoruq ərazisində 1300-dən çox ailə yaşayır.

Qoruq ərazisi hələ tunc dövründə məskunlaşmışdır. Arxeoloji tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, artıq VIII-IX əsrlər ərzində İçərişəhər ərazisi sıx məskunlaşmış, burada sənətkarlıq və ticarət inkişaf etmişdir. XV əsrdə Şirvanşahların öz iqamətgahlarını Şamaxıdan Bakıya köçürməsindən sonra İçərişəhərin həyatında "kristallaşma" dövrü başlamışdır. 1748-1806-cı illərdə Bakı və onun mərkəzi olan İçərişəhər Bakı xanlığının paytaxtı olmuşdur. 1806-cı illərdə Bakının ruslar tərəfindən işğal edilməsi və neft bumunun yaşanmasından sonra (XIX əsrin sonları-XX əsrin əvvəlləri) şəhərin inkişaf və genişləndirilməsi prosesi başlamış, insanlar İçərişəhər divarlarından kənarda da sıx məskunlaşmağa başlamışdır.

"İçərişəhər"də 50-dən çox müxtəlif dövrləri əhatə edən tarixi və memarlıq abidələri vardır. Bu günə qədər qorunub saxlanmış abidələrə Şirvanşahlar Sarayını, Qız Qalasını, Sınıq Qalanı misal göstərmək olar.

Azərbaycan memarlıq incilərindən biri olan Şirvanşahlar Sarayı XV əsrin əvvəllərində salınmış, buraya kompleks, saray, divanxana, şirvanşahlar türbəsi, minarəli saray məscidi, hamam, Seyid Yəhya Bakuvi türbəsi və sonralar ucaldılmış “Şərq” divanxanası abidələri daxildir. Kompleksin ilk tikililəri 1441-ci ilə, son "Şərq" divanxananın tikintisi isə 1558-ci ilə memar Əmirşaha aid olduğu qeyd edilir.

1977-ci ildə İçərişəhər tarix-memarlıq qoruğu elan edilib, 2000-ci ildə isə, Qız qalası və Şirvanşahlar saray kompleksi ilə birlikdə UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmiş ilk obyektdir.



Azərbaycan memarlığının unikal abidəsi olan ***“Qız Qalası”*** İçərişəhərin cənub-şərq hissəsində ucaldılmış və bu abidə iki mərhələdə tikilib. Abidənin 13,7 m hündürlüyünə qədər olan aşağı hissəsi bir çox alimlərin hesab etdiyi kimi eramızdan əvvəl VII-VI əsrlərə aid edilir. Qalanın hündürlüyü 29,7 m, diametri isə 16,5 metrdir. Divarlarının qalınlığı aşağı hissədə 5 m, yuxarı yaruslarında isə 4 metrdir. Qalanın daxili hissəsi 8 mərtəbəyə bölünür. Hər mərtəbə yonma daşlarla tikilmiş, günbəz formalı tavanla örtülmüşdür. Daşdan hörülmüş bu tavanların ortasında dairəvi deşiklər vardır. Deşiklər şaquli xətt istiqamətindədir. Belə ki, VIII mərtəbənin tavanının ortasında olan dairəvi deşikdən baxdıqda birinci mərtəbənin döşəməsini görmək mümkündür. Qalaya yeganə giriş yolu onun qərb tərəfində, yerin əvvəlki səthindən 2 m hündürlükdə və 1,1 m enində olan tağlı qapı yeridir.

Azərbaycanın emblemlərindən biri olan Qız qalası Azərbaycan pul əskinaslarının üstündə də dəfələrlə təsvir edilmişdir.

Qala 1964-cü ildən muzey kimi fəaliyyət göstərməyə başlamış, 2000-ci ildə UNESCO-nun Ümumdünya irsi siyahısına salınmışdır.

Son illərdə Qız qalasında və onun ətrafındakı meydanda hər il Novruz bayramı şənliklərinin keçirilməsi ənənəsi yaranmışdır. Tikilmə vaxtı ətrafında mübahisələrin heyrətləndirici böyük zaman intervalı çərçivəsində aparılması baxımından memarlıq tarixində Qız qalası ilə müqayisə edilə biləcək abidə yoxdur. Belə ki, abidənin yaşının Şumer dövründən başladığını iddia edən mütəxəssislər də var, XII yüzillikdə tikildiyini sübut etməyə çalışanlar da. Burda zaman fərqi tikilmə tarixi bilinməyən başqa abidələrdə olduğu kimi bir neçə il deyil, hətta bir neçə əsr də deyil, 3000 ildən artıqdır.

Qala divarları üzərindəki bir kitabədə ərəb dilində bu sözlər: ***"Davudun oğlu Məsudun qülləsi"*** yazılmışdır. Bəzi tədqiqatçılar bu şəxsin Qız qalasını tikdirən feodal hakim olduğunu ehtimal edirlər. Lakin bu cür lakonik məzmunlu kitabələrdə adətən memarların adının qeyd edildiyi nəzərə alınsa, "Davudun oğlu Məsud"un Qız qalasını inşa edən memar olduğunu söyləmək mümkündür. Kitabənin yazı üslubu və xətti XII əsr yazısına yaxın olduğuna görə Qız qalasının məhz bu dövrdə tikildiyi ehtimal edilir. Digər tərəfdən bir çox alimlərin fikrinə görə Kufi yazılarından X-XII əsrlərdə istifadə olunduğu üçün Qala (üst qatı) həmin əsrlərdə inşa olunub. Lakin, bəzi alimlər bu fikirlərin səhv olduğunu iddia edirlər. Daşların qatışıq məhlulundan-əhəng qarışığından istifadə olunmasından İlyas Babayev, Qara Əhmədov kimi arxeoloqlarımız müəyyən nəticəyə gəliblər. Onlar Qəbələdəki birinci minilliyin ilk əsrlərinə aid edilən abidəni əsas götürüblər. Orada da abidə eynən belə əhəng qarışığı ilə tikildiyindən, Qız Qalasını da antik dövrə aid ediblər. Bu fikri Sara xanım Aşurbəyli də təsdiq edib.



Od məbədi olan ***"Atəşgah"*** Bakının 30 kilometrliyində, Abşeron yarımadasının Suraxanı qəsəbəsinin

cənub-şərq hissəsində yerləşir. “Atəşgah” XVII-XVIII əsrlərdə təbii qazların çıxdığı əbədi sönməz alovların yerində inşa edilmiş od məbədidir. Məbədin ən erkən tikilisi olan tövlə eramızın 1713-cü ilinə aiddir, mərkəzi məbəd-səcdəgahı isə 1810-cu ildə tacir Kançanaqaranın vəsaiti ilə tikilmişdir.



Bakının ən qədim və zəngin tarixi abidələrindən biri də dünyada qayaüstü təsvirlərlə tanınmış Qobustandır. Qobustanda Böyükdaş, Kiçikdaş, Cingirdağ, Sonqardağ və Şıxqaya dağlarında daş dövrün və Azərbaycan xalqının ulu keçmişinin şahidləri olan çoxlu qayaüstü təsvir, düşərgə, yaşayış məskəni, qəbir abidələri və sair vardır. Böyükdaş ərazisində mezolitdən orta əsrlərə qədər bütün dövrlərin abidələrinə rast gəlmək olar.

***Dördkünc Mərdəkan qalası*** və ya böyük Mərdəkan qəsri Abşeronun ən qədim qalalarından biri və ən hündür donjonudur (digər qalalardan fərqli olaraq, donjonlar əsas qala ilə əlaqəsi olmayan divarlarla əhatə olunur; belə demək mümkünsə, qala içində qala).

Qalanın hündürlüyü 22 metr, əhatə divarlarının hündürlüyü 7 metrdir. Qalınlığı aşağı hissədən 2,1 metr, yuxarıdan isə 1,6 metrdir. İstehkam içəridən 5 yarusa bölünür.

Bakının Mərdəkan qəsəbəsində yerləşən bu qala XII əsrdə - 1187-1188-ci illərdə Şirvanşah I Axsitan tərəfindən tikilib. Axsitanın düşmən üzərindəki parlaq qələbəsi şərəfinə ucaldılmış qaladan müxtəlif vaxtlarda müdafiə məqsədilə, eləcə də müşahidə məntəqəsi, bəzi dövrlərdə isə qəsr kimi istifadə edilib.

Qalanın həyatinə daxil olarkən ilk növbədə yerdəki quyular diqqəti cəlb edir. Dərinliyi təqribən 2 metr olan bu quyular əsasən düşmən hücumu zamanı qalaya sığınarkən müxtəlif növ ərzaq məhsullarının saxlanılması üçün nəzərdə tutulub. Ümumilikdə donjonun ətrafında və həyətində vaxtilə 90-dan çox quyunun (o cümlədən su quyuları) olduğu bildirilir. Bundan başqa, həyətdə qədim daş kitabələr, daşdan yonulmuş və şəxsı əşyalar, qablar da var.



Xatırladaq ki, donjonun yaxınlığında XV əsrə aid Tuba Şahı məscidi (1481-1482-ci illər), XIII-XIV əsrlərə aid sənduqə də var.

Qalanın üstündəki yazıdan məlum olur ki, o, 1232-ci ildə memar Əbdülməcid Məsud oğlu tərəfindən tikilmişdir.

**Bakı bulvarı** - Bakı şəhərində, Xəzər dənizinin sahilində yerləşən bulvar 1909-cu ildə yaradılmışdır. 29 dekabr 1998-ci ildən milli park statusu daşıyır. Ərazisinin böyüklüyünə görə Parisdə Sena çayı sahilindəki parkdan sonra Avropada ikinci yerdədir. Dənizkənarı bulvarın salınması 1909-cu ildə Bakı şəhər Duması tərəfindən qərarlaşdırılmış və o vaxtlar Dumada çalışan məşhur mühəndis Məmməd Həsən Hacınskinin adı ilə bağlıdır. O zaman tender yolu ilə seçilmiş layihənin işlənib həyata keçirilməsində mühəndis Kazimir Skureviçin və memar Adolf Eyxlerin də böyük zəhməti olmuşdur. Onların təklifi əsasında dəniz sahili ilə yeni salınmış II Aleksandr küçəsinin (indiki Neftçilər prospekti) arasında yaşıllıq zolağının salınması nəzərdə tutulmuşdu. İki il müddətində buraya kənardan münbit torpaq daşınmış, Azərbaycanın başqa bölgələrindən və hətta Avropadan belə müxtəlif nadir bitki növləri gətirilib əkilmişdir.

1970-ci illərdə dövlət tərəfindən respublikada və birinci növbədə Bakı şəhərində yaşıllaşdırma və abadlaşdırma işlərinin

genişləndirilməsi nəticəsində Dənizkənarı bulvarda da yenidənqurma işləri aparıldı. Bulvar şərq və qərb istiqamətlərində genişləndirildi, onun uzunluğu 3,7 kilometrə çatır.



# Neft sənayesinin inkişaf tarixi

*Azərbaycan, Bakı öz nefti ilə dünyanın şirkətlərini, iş adamlarını XIX əsrin ikinci yarısından, XX əsrin əvvəllərindən cəlb etmiş və bir çox xarici şirkətlər burada uğurlu fəaliyyət göstərmiş, neft hasilatını təmin etmişlər.*

***Heydər Əliyev***
*Ümummilli lider*



Azərbaycan neftinin tarixi kökləri çox qədim dövrlərə gedib çıxır. Ərəb tarixçiləri, coğrafiyaşünasları və səyyah-larından Əhməd Əl-Bəlaruri (IX əsr) Abşerondakı iqtisadi həyatın qədimdən neftlə bağlı olduğunu göstərmiş, Əbu-İshaq İstəxri (XI-X əsrlər), Əbu-d-Həsən Əli Məsudi (X əsr) Bakının neftli torpağı, Abşeronun "ağ" və "qara" nefti haqqında məlumat vermişdir. İtalyan səyyahı Marko Polo (XIII-XIV əsrlər) Bakı neftinin yaxın Şərq ölkələrinə aparılması, alman diplomatı və səyyahı Adam Oleari (XVII əsr) Bakıdakı neft quyuları, türk səyyahı Evliya Çələbi (XVII əsr) neft mədənləri, neftin İrana, Orta Asiyaya, Türkiyəyə və Hindistana aparılması və neftin gətirdiyi illik gəlir haqqında məlumat vermişdir. Balaxanıdakı neft quyularından birində aşkar edilmiş daş üzərindəki yazı quyunun (35 m dərinliyində) hələ 1594-cü ildə usta Allahyar Məmmədnur oğlu tərəfindən qazılıb istifadəyə verildiyi göstərilir. Əmin Əhməd Razinin (İran, 1601) məlumatına görə XVI əsrin əvvəllərində Bakı ətrafında 500-ə qədər belə neft çalaları və quyusu mövcud idi ki, bunlardan da həm "qara", həm də "ağ" neft çıxarılırdı. Alman səyyahı, həkim və təbiətşünası Engelbert Kempfer İsveç səfirliyinin katibi kimi 1683-cü ildə Abşeron yarımadasında Balaxanı, Binəqədi, Suraxanı yataqlarında olmuş,

neftin Abşeron yarımadasından İrana, Orta Asiyaya və Şimali Qafqaza aparılmasını təsvir etmişdir. 1803-cü ildə Bakı sakini Qasımbəy Mənsurbəyov Bibiheybət yaxınlığında, dənizdə, sahildən 18 m və 30 m aralı iki neft quyusu qazdırmışdır.

Azərbaycan neft sənayesinin inkişaf tarixində bir neçə mərhələlər ayrılır ki, bunların da hər birinin özünəməxsus nailiyyətləri olmuşdur.



I mərhələ 1847-ci ildən neftin mexaniki üsulla qazılmış quyulardan hasil edilməsi ilə başlanır və 1920-ci ilə kimi davam edir. 1847-1848-ci illərdə ilk dəfə Bibiheybət və sonra Balaxanı yataqlarında mexaniki üsulla qazılmış quyulardan sənaye əhəmiyyətli neft alınmış və həmin ildən də Azərbaycanın neft sənayesinin inkişafı başlanır.

XIX əsrin əvvəllərində dünyada ilk dəfə olaraq Bibiheybətdə sahildən 30 m aralı dənizdə qazılmış əl quyusundan neft hasil edilmişdir.

1859-cu ildə Bakıda ilk neftayırma zavodu (qurğusu) tikilir. 1863-cü ildə Cavad Məlikov Bakıda kerosin zavodu tikdirdi və dünyada ilk dəfə neftayırma prosesində soyuduculardan istifadə etdi. 1867-ci ildə 15 neftayırma qurğusu fəaliyyət göstərirdi.

Mexaniki üsulla quyuların qazılmasının texnika-texnologiyası inkişaf etdikcə bir sıra yeni neft yataqları aşkar edilir (Binəqədi, Pirallahı, Suraxanı və s.), neft hasilatı artır, neft sənayesinin infrastrukturu və neftin emalı inkişaf etməyə başlayır, neftin hasilatı, emalı və satışı üzrə yüzlərlə firmalar yaradılır. Azərbaycanda milli burjuaziya formalaşır, Bakı şəhəri dünyanın sənaye mərkəzlərindən birinə çevrilir. İlk dəfə Abşeron yarımadasında 1871-ci ildə Balaxanı-Sabunçu-Ramanı yatağı sənaye üsulu ilə işləməyə başladı. 1872-ci ildə neft sənayesində münasibətləri tənzimləmək məqsədilə iki qanun qəbul edilir: “Neft

mədənləri və neft məhsullarından aksiz vergisi haqqında" və "İcarədarların əlində olan neftli səhələrin hərracla fiziki şəxslərə satılması". 31 dekabr 1872-ci ildə neftli sahələrin ilk satışında Balaxanıda 15 sahə, Bibiheybətdə 2 sahə hərraca qoyulur.



O dövrdə dövlətə mənsub olan istifadəsiz torpaqlar neft axtarışı və aşkar edilmiş neftli sahələrin istismarı üçün 24 il müddətinə icarəyə verilirdi. İcarədar hasil etdiyi nefti ixrac etmək və onun satış qiymətini təyin etmək hüququna malik idi. İcarədarın satılan neftdən əldə etdiyi təmiz gəlir 14-15% təşkil edirdi. XIX əsrin 70-ci illərində neft sənayesinə təmiz milli kapital qoyuluşu cəmi 4% təşkil edirdi. Milli kapitalın iştirakı ilə qarışıq kapitalın həcmi isə 10%-ə yaxın idi. XIX əsrin sonunda neft sənayesində fəaliyyət göstərən 167 sahibkarın 49-u (24,8%) azərbaycanlı olmuşdur. O dövrdə neft sənayesinin inkişafında milli "neft milyonçuları"nın (Hacı Zeynalabdin Tağıyev, İsa bəy Hacınski, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Seyid Mirbabayev və b.) böyük fəaliyyətləri olmuşdur. 1874-cü ildə Bakıda ilk səhmdar neft şirkəti – "Bakı neft cəmiyyəti" yaradılır. 1873-cü ildə milliyətcə isveç olan Robert Nobel Bakıya gəlir, neftlə əlaqədar iqtisadi yüksəlişin şahidi olur. 1876-cı ildə Nobel qardaşları Bakıda neft hasilatı və emalı üzrə neft şirkəti yaradırlar. O vaxtlar Azərbaycanda bir sıra neft mədənləri, neft emalı zavodları, ilk dəfə Xəzər dənizində quraşdırılmış neftdaşıyan tanker, barjlar, dəmir yolları, mehmanxanalar və s. Nobel qardaşlarına məxsus idi. 1876-cı ildə neft məhsullarına aksiz verqisi ləğv edildikdən sonra yeni neftayırma zavodları tikilib istismara verildi.

1878-ci ildə Balaxanı yatağı ilə Bakı neftayırma zavodunu birləşdirən 12 km uzunluğunda Rusiyada ilk neft kəməri inşa edilir.1898-ci ildə neft mədənləri ilə Bakı neftayırma zavodlarını

birləşdirən neft kəmərlərinin ümumi uzunluğu 230 km idi. Bu kəmərlərdə ildə 1mln. t neft nəql edilirdi.

1880-ci ildə məşhur kimyaçı-alim D.İ.Mendeleyev Bakı neftinin dünya bazarlarına çıxarılmasını təmin etmək üçün Bakı-Batum neft kəmərinin çəkilməsini təklif edir. 1883-cü ildə Bakı-Batum dəmir yolu tikilib istifadəyə verilir ki, bu da neft və neft məhsullarının Avropa ölkələrinə ixrac edilməsində mühüm əhəmiyyətə malik idi. 1883-cü ildən Rotşild Bakıda maliyyə-kredit əməliyyatlarına və neftin satışı ilə məşğul olmağa başlayır. 1886-cı ildə Rotşildin Xəzər-Qara dəniz neft şirkəti yaradıldı. 1890-cı ildə Rotşildin bankı Bakı neftinin ixracının 42%-nə nəzarət edirdi. 1901-ci ildə Azərbaycanda 11 mln. t neft hasil edilmişdir ki, bu da dünya neft hasilatının 50%-dən çoxunu təşkil edirdi. Bu kəmərin uzunluğu 833 km, d.-200 mm olub.



Azərbaycanda neft sənayesi milliləşdirilənədək 109 səhmdar cəmiyyəti fəaliyyət göstərirdi. Onlardan 72-si rus kapitalına (240 mln. rubl) və 37-si isə ingilis kapitalına (100 mln. funt-sterlinq) məxsus idi. Nobel qardaşlarının neft sənayesinə qoyduqları kapital 30 mln. rubl təşkil edirdi. O dövrün ən varlı neft sənayesi sahibkarlarından olan mesenat İsa bəy Hacinskinin "Hacı-Çeleken" neft şirkətinin neft sənayesinə kapital qoyuluşu 1,25 mln. funt-sterlinq təşkil edirdi. Neft sənayesinin milliləşdirilməsi ərəfəsində Azərbaycanda 270 neft istehsal edən müəssisə, neft quyularının qazılması ilə məşğul olan 49 orta və kiçik firmalar, neftin emalı ilə məşğul olan 25 firma, 100-dən artıq mexaniki sexlər, təmir emalatxanaları və s. fəaliyyət göstərirdilər. Bu mərhələnin sonuncu illərində neft sənayesində ağır vəziyyət yaranmışdı (müharibə, inqilabi hərəkat və s. nəticəsində) və neft hasilatı kəskin surətdə azalmışdır.



II mərhələ 1920-ci ildə Azərbaycanda neft sənayesinin milliləşdirilməsindən sonra başlayır və 1949-cu ildə açıq dənizdə “Neft Daşları” yatağının kəşfi dövrünü əhatə edir. 1921-ci ildə neft hasilatı azalaraq 2,4 mln. tona enir. II mərhələdə axtarış-kəşfiyyat işlərinin genişləndirilməsi ilə əlaqədar Azərbaycanda bir sıra yeni neft yataqları (xüsusilə Qala, Buzovna-Maştağa və s.) aşkar edilib istismara verilir və neft hasilatı 1941-ci ildə 23,6 mln. tona çatdırılır ki, bu da o dövrdə SSRİ-nin neft hasilatının 76%-ni təşkil edir. Bununla əlaqədar S.A.Vəzirov “Azneftkombinatın” rəisi, R.H.İsmayılov (“Azneftzavodlar” birliyinin rəisi), B.Q.Babazadə (“Əzizbəyovneftin” baş geoloqu), R.Rəhimov (qazma ustası), Sosialist Əməyi Qəhrəmanı adına layiq görülən ilk neftçilər olmuşlar. 1941-1945-ci illərdə müharibə dövründə neft avadanlıqlarının və neftçi mütəxəssislərin SSRİ-nin şərq rayonlarına (Tatarıstan, Türkmənistan, Başqırdıstan və s.) köçürülməsi ilə əlaqədar Azərbaycanda neft hasilatı 11,1 mln. tona düşür.

7 noyabr 1949-cu ildə Neft Daşlarında 942 m dərinlikli 1№-li quyu (Qala lay dəstəsindən) gündə 100 t hasilatla istismara daxil oldu və dənizdə neftçıxarmanın əsasını qoydu. Yataq üzrə ilk geoloq Ağa Qurban Əliyev olmuşdur.

III mərhələ 1950-ci ildə “Neft Daşları” yatağının istismara verilməsi, Azərbaycanda dəniz neft sənayesinin inkişafı ilə başlanır və bu 1969-cu ilə kimi davam edir. Bu mərhələdə dəniz geoloji-kəşfiyyat işləri genişlənir, bir sıra neft və qaz yataqları aşkar edilib istismara verilir (Qum-dəniz, Səngəçal-Duvannı-dəniz-Xərə-Zirə a.-sı, Bahar, Bulla-dəniz, Darvin küpəsi, Palçıq pilpiləsi və s.), dəniz qazma işlərinin (o cümlədən axtarış - kəşfiyyat qazmasının), hidrotexniki neft qurğularının tikilməsinin texnika və

texnologiyası, dənizdə neftçıxarmanın infrastrukturu inkişaf etdirilir.



Bu mərhələdə quru sahələrində də bir sıra yeni neft və qaz-kondensat yataqları aşkar edilib istismara verilmişdir (Kirovdağ, Mişovdağ, Kürsəngə, Qarabağlı, Qalmaz, Qaradağ və s.). Bu dövrdə əsasən "Neft Daşları"nın və digər yataqların intensiv surətdə işlənilməsi və istismarı həyata keçirilmişdir. Dünya təcrübəsində ilk dəfə açıq dənizdə estakada dirəkləri üzərində dəniz mədəni tikildi. Burada kompleks mühəndis və elmi-texniki tədbirlərin tətbiqi nəticəsində külli miqdarda kapital qoyuluşuna, metala qənaət edilərək yüksək əmək məhsuldarlığına, neftin hər bir tonunun maya dəyərinin aşağı düşməsinə nail olunmuşdur.

IV mərhələ 1969-cu ildən başlayaraq Azərbaycanın xalq təsərrüfatının bütün sahələri kimi neft və qaz sənayesinin də yüksək dinamik inkişaf mərhələsinə qədəm qoyması ilə səciyyələnir və bu da ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə təsadüf edir. Bu dövrdə Azərbaycanın



neft və qaz sənayesinin xüsusilə dəniz neftinin hasilatının inkişaf tarixində yeni mərhələ başlayır. 1970-ci ildə "Xəzər-dənizneft" İstehsalat Birliyi (İB) yarandı və SSRİ Neft Sənayesi Nazirliyi Xəzərdə Azərbaycan neftçilərinin dəniz şəraitində iş aparmaq təcrübəsini nəzərə alaraq Xəzərin bütün sektorlarında (həmin ildən Xəzər sektorlara bölündü) geoloji-kəşfiyyat, qazma, işlənmə, istismar və digər işlərin aparılmasını Azərbaycan neftçilərinə həvalə etdi.

1941-ci ildə Sanqaçal Dəniz Qazma İşləri İdarəsində buruq ustası kimi əmək fəaliyyətinə başlamış Qəmbərov Məmməd Mütəllim oğlu 1974-cü ildə Sosialist Əməyi Qəhrəmanı, 1978-ci ildə Azərbaycan SSR Dövlət Mükafatı laureatı və 2 dəfə Lenin ordeni və medalları ilə təltif olunmuş ilk neftçilərdəndir.

Bu tarixə kimi Xəzər dənizində istifadə olunan texniki vəsait yalnız dənizin dərinlikləri 40 m-ə qədər olan sahələrdə işləməyə imkan verirdi. Həmin dövrdə Xəzərin Azərbaycan sektorunda 40 m-ədək dərinlikdəki perspektivli sahələrdə demək olar ki, bütün neft-qaz yataqlarının hamısı aşkar olunmuşdu. Dənizdə neft və qazın hasilatının artırılması daha böyük dərinliklərdə yatan neft və qaz yataqları ilə bağlı idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində 70-80-ci illərdə Azərbaycana 75 növdə 400-dən çox ağır yük qaldıran kran gəmisi, boruçəkən gəmilər, seysmik, sərnişin və s. gəmi növləri gətirildi. Xəzərdə 2500 t gücündə "Azərbaycan" kran gəmisi işə başladı. Bundan başqa ilk vaxtlarda dənizin 70 m dərinliyində olan sahələrdə geoloji-kəşfiyyat işləri aparmaq üçün "Xəzər" tipli özüqalxan, sonralar isə dənizin 200 m dərinliyindəki sahələrdə işləməyə imkan verən "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yarandı. Nəticədə 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yataqları kəşf edildi, neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. 1975-ci ildə neft və qazın ümumi hasilatı 27,1 mln. t-a (şərti yanacaq) çatdırıldı. 80-ci illərdə üzən qazma qurğularının sayı 11-ə çatdı və onlardan istifadə nəticəsində, indi Azərbaycan neftinin əsas hissəsini təşkil edən dənizin 80-350 m dərinlikdə yatan zəngin neft ehtiyatlarına malik olan yataqlar kəşf olundu (Günəşli, Çıraq, Azəri və b.).

Bu dövrdə dünyada analoqu olmayan Dərin Dəniz Özülləri zavodunun Azərbaycanda, Bakıda tikilməsi üçün o zaman Sovetlər məkanında 450 mln. ABŞ dollarının ayrılması, bunun üçün belə bir icazəni alınmasına nail olunması (bu zavodun Həştərxanda

tikilməsi nəzərdə tutulmuşdu) cənab Heydər Əliyevin möhkəm iradəsinin və cəsarətinin nəticəsi idi.

V mərhələ SSRİ-nin dağılması, müstəqillik dövrünün və Azərbaycanın yeni tarixini əhatə etməklə "Yeni neft strategiyası" nın yaranması ilə səciyyələnir.

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir.

Müstəqillik dövründən bu günə kimi ölkədə mövcud iqtisadi inkişafı iki əsas mərhələyə ayırmaq olar. Birincisi, 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və ya tənəzzül dövrü. İkincisi, 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü.

Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin dövründə dövlət üçün zəruri olan gömrük sisteminin yaradılması Azərbaycanın təbii ehtiyatlarının xaricə maneəsiz daşınmasının qarşısını xeyli dərəcədə aldı.

1992-ci ildə tamamilə maliyyə baxımından taqətdən salınmış, xəzinəsinə süpürgə çəkilmiş bir ölkədə Dövlət Ləl-Cəvahirat Fondu yaradıldı. Bir ildə fonda 1.5 ton qızıl və digər qiymətli metallar toplandı. 1993-cü il iyun ayının 1-nə qədər Azərbaycan Respublikasının Mərkəzi Bankında valyuta ehtiyatı 1992-ci ilin uyğun dövrünə nisbətən 100 dəfədən çox artaraq 156 milyon ABŞ dollarına çatdı.

1992-ci ildə hakimiyyətə gələn Azərbaycanın ikinci prezidenti Əbülfəz Elçibəyin yürütdüyü iqtisadi siyasət əsasən iki məqsədə yönəldilmişdi. Birincisi, köhnə dövlət təsərrüfatını vaxtsız dağılmaqdan qoruyub saxlamaq və bunun üçün dövlət əmlakının gündəlik talan edilməsinin qarşısını almaq, əmək intizamını, vəzifəli şəxslərin dövlət qarşısında məsuliyyətini, ictimai sərvətin mühafizəsini gücləndirmək; köhnə iqtisadi əlaqələri bərpa etmək

yolu ilə iqtisadiyyatda nisbi də olsa sabitliyə nail olmaq. İkincisi, liberal iqtisadi islahatlara başlamaqla respublikada bazar iqtisadiyyatının formalaşmasına nail olmaq. Bu məqsədlə Dövlət Əmlak Komitəsi (2009-cu ildə qurulan Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yerinə keçdi), Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Yardım Komitəsi və İqtisadiyyat Nazirliyi (2001-ci ildə Dövlət Əmlakı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ticarət Nazirliyi, Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi və Xarici İnvestisiyalar Agentliyi ləğv edilmiş, onların bazasında Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi yaradılmışdır), Torpaq Komitəsi (2001-ci ildə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi yerinə keçdi) dövlət orqanları yaradıldı.



Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsinə və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanmasına, beləliklə də ixrac marşrutlarının diversifikasiyasına nail olundu. Prezident Heydər Əliyevin 1999-cu ildə imzaladığı fərmanla neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə edilməsi, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) yaradıldı. Lakin beynəlxalq maliyyə təşkilatları tərəfindən Fondun fəaliyyəti və bu sahədə şəffaflığın təmin edilməsi çox da yüksək qiymətləndirilmir.

2008-2009-cu illərdə dünyada baş verən qlobal maliyyə-pul bazarlarının sıxıntısı şəraitində bankların, milli şirkətlərin xaricdən borclanması, onların yenidən maliyyələşməsi imkanları nəinki məhdudlaşdı, hətta bir sıra borcların vaxtından əvvəl qaytarılması tələb olundu. Belə şəraitdə Azərbaycan bankları il ərzində $1,2 mlrd. borc qaytardılar. Bundan başqa xaricdə yaşayan azərbaycanlıların regionların əhalisi üçün sosial baxımdan xüsusi əhəmiyyət kəsb edən pul transferləri də xeyli azaldı. Nəticədə milli iqtisadiyyat bəzi qonşu ölkələrdə olduğu kimi, manatın devalvasiyası təzyiqləri ilə qarşılaşdı. Bu təzyiqlər özünü ötən ilin birinci rübündə - əhalinin devalvasiya gözləntilərinin daha çox artdığı (Rusiya və Ermənistandaki devalvasiyadan sonra) və bununla da əlaqədar pullarının xeyli hissəsini xarici valyutalara çevirdiyi şəraitdə - qabarıq şəkildə göstərdi. Milli valyutanın stabilliyini qorumaq üçün Mərkəzi Bank xeyli resurslar sərf etməli oldu və bu da sonda demək olar ki, özünü doğrultdu. Bütövlükdə, il ərzində Mərkəzi Bankın xalis emissiyası 1,8 mlrd. manat təşkil etdi. Daxili və xarici maliyyə mənbələrinin azalması şəraitində Mərkəzi Bank pul siyasətini ciddi şəkildə yumşaltmalı oldu, uçot dərəcəsi 15%-dən 2%-dək azaldıldı.

2012-ci ildə İlham Əliyev çıxışında qeyd edib ki, BP şirkəti Azərbaycanın neft-qaz sektoruna 28 milyard dollar investisiya qoyub, 74 milyard gəlir əldə edib. Lakin bəzi ekspertlər 28 milyard dolların özünü çox böyük rəqəm hesab edir. Bu məbləğ “Əsrin müqaviləsi” imzalananda müqavilənin elan olunmuş smeta dəyərindən ən azı üç dəfə çoxdur.

# Mühüm tədbirlər

*2015 Avropa Oyunları* - 12 iyundan 28 iyuna qədər Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilən idman yarışı. 2015 Avropa Oyunları tarixdə ilk dəfə keçirilən idman yarışıdır. Yarışlarda Avropanın 50 ölkəsinin 10 000 idmançısı mübarizə aparıb. Yarışlarda Bakının 11, Mingəçevirin isə 1 idman qurğusundan istifadə olunub. 2015 Avropa Oyunlarının təqviminə 30 idman növü daxil edildi. Onlardan 24-ü Olimpiya, 6-sı isə qeyri-Olimpiya idman növüdür. Yarışlarda idmançılar 253 dəst medal uğrunda yarışıb.

Avropa Oyunlarının açılış mərasimi 12 iyun tarixində Bakının Olimpiya Stadionunda baş tutub. Açılış mərasimində Avropa Oyunlarını rəsmi olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açıq elan edib. Avropa Oyunlarının məşəlini isə Bakı Olimpiya Stadionuna 2 qat Paralimpia Çempionu, Qarabağ qazisi cüdoçu İlham Zəkiyev gətirib.

Yarışlarda 50 ölkənin 10 000 idmançısı 30 idman növündə mübarizə aparıb. 17 gün davam edən yarışlar 28 iyun tarixində Bakı Olimpiya Stadionunda yekunlaşıb. Yarışlarda qeyri-rəsmi medal cədvəlində ilk sıranı Rusiya Federasiyasının idmançıları tutub. Onlar I Avropa Oyunlarında 79 qızıl, 40 gümüş və 45 bürünc, ümumilikdə 164 medal qazanıb. İkinci sıranı isə ev sahibi

Azərbaycan idmançıları tutdu. Yarışlara 289 idmançı ilə qatılan Azərbaycan 21 qızıl, 15 gümüş və 20 bürünc, ümumilikdə 56 medal qazanıb. Üçüncü sıra isə Böyük Britaniya idmançılarına nəsib olub. Onlar 18 qızıl, 10 gümüş və 19 bürünc medal qazandı və I Avropa Oyunlarını 47 medalla başa vurublar.

2015 Avropa Oyunlarının rəsmi büdcəsi 1.12 milyard Amerika Birləşmiş Ştatları dolları təşkil edib. Satışa 600 000 bilet çıxarılıb. Avropa Oyunlarının təşkili Federasiyası (İHİF) tərəfindən keçirilən çoxmillətli və çoxidmanlı tədbirdir.

*İslam Həmrəyliyi Oyunları*- İlk Oyunlar 2005-ci ildə Səudiyyə Ərəbistanında keçirilmişdir. Sayca İkinci İslam Həmrəyliyi Oyunlarının ilkin olaraq 2009-cu ilin oktyabrında İranda keçirilməsi nəzərdə tutulsa da, daha sonra tədbir 2010-cu ilin aprel ayına təxirə salındı və sonradan ləğv olundu. Növbəti Oyunlar 2013-cü ildə İndoneziyada baş tutdu.

2014-cü ildə 24 iyul tarixində Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının 8-ci Baş Assambleyası keçirildi. Bu Assambleyada dördüncü İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Azərbaycanda keçirilməsinə qərar verildi. Daha sonra Assambleyada səs vermə baş tutdu və tam yekdilliklə Azərbaycan 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmək hüququ qazandı.

2015-ci ildə 7 aprel tarixində IV İslam Həmrəyliyi Oyunları barəsində müqavilə imzalandı. Azərbaycan Milli Olimpiya

Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və şahzadə Abdullah Bin Mosaad Bin Abdulaziz Alsaud imzaladığı müqaviləyə əsasən IV İslam Həmrəyliyi Oyunlarının proqramına 20 idman növü, o cümlədən Azərbaycanın milli idman növü olan zorxana əlavə olundu.

2015-ci ildə 2 noyabr tarixində Azərbaycanın Bakı şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının Əlaqələndirmə Komissiyasının iclası baş tutdu. Nihat Ustanın sədrliyi ilə keçirilən Əlaqələndirmə Komissiyasının iclasında Azərbaycan adından Azad Rəhimov, Çingiz Hüseynzadə, Könül Nurullayeva və digər nümayəndələr qatıldı.

2016-cı ildə 13 may tarixində Bakı 2017 İslam Həmrəyliyi Oyunları Milli Olimpiya Komitəsi üçün Açıq Gün baş tutdu. IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq işlərinin davamı olaraq Azərbaycan İslam Həmrəyliyi Oyunlarının Əməliyyat Komitəsi 39 İslam dövlətinin Milli Olimpiya Komitəsinin üzvlərini qəbul etdi.

# Ədəbiyyat


**1955**

**1.Bakının memarlıq abidələri** /S.Dadaşova, M.Hüseynov; Azərbaycan SSR EA Memarlıq və İncəsənət İnstitutu.- Bakı: Azərbaycan SSR EA, 1955.- 38 s.: şək.

**1997**

**2.Köhnə Bakı** /N.İbrahimov; red.N.Əliyev.- Bakı: Azərbaycan, 1997.- 188 s.

**1998**

**3.Bakı və bakılılar** /Q.İ.İlkin; red. M.Abasov; ön söz. F. Qasımzadə.- Bakı: Zaman, 1998.- 384 s.

**2001**

**4.Neft dünyamızın şah damarı** /Ç.İsmayılov; red. İ.Qasımzadə.- Bakı: Ayna Mətbu Evi, 2001.- 79 s. rəngli.

**2003**

**5.Xəzər dənizi və neft (1954-2002):** Biblioqrafik göstərici / tərt. ed. N.İsmayılov; red. L.B.Hüseynova.- Bakı: Mütərcim, 2003.- 48 s.

**6.Xəzərin göz yaşları:** roman və povest /Ə.M.Cəfərzadə; red. V.Sultanlı.- Bakı: EL-ALİANCE, 2003.- 168 s.

**7.Türk ordusu Bakıda**: xatirələr / Q.İlkin; red. Ş.Nəzərli.- Bakı: AzAtam, 2003.- 45 s.: şək.

**2004**

**8.Köhnə Bakını tanıyırsanmı** /Q.İlkin; red. A.İsabəyli.- 2-ci nəşr.- Bakı: Şirvannəşr, 2004.- 116 s.: şək.

**2005**

**9.Heydər Əliyev və Bakının memarlığı** /N.Ə.Əliyev.- Bakı: 2005.- 224 s.

**2006**

**10.Bakı nefti, neft milyonçuları və Nobel qardaşları**: elmi-publisistik monoqrafiya /C.M.Mahmudov; elmi red. Z.S. Abdullayev**.-** Bakı: Nurlan, 2006.- 335 s.

**11.İçərişəhər Bakı /**K.F.İbrahimov; ön söz. T.Ə.Bünyadov; elmi red. F.Ə.İbrahimov; rəy. V.Əliyev; bədii tərt. Mir-Teymur; rəs. C.Əliquliyev.- Bakı: Çinar-Çap, 2006.- 256 s.

**12.Köhnə Bakı** / N.Sarabski; red. Ə.Quliyev; rəs. Ə.Əzimzadə.- Təkrar nəşr (1958-ci il nəşri əsasında).- Bakı: Şərq-Qərb, 2006.- 144 s.: il.

**13.Qədim və indiki Abşerona səyahət** /A.Məmmədov; red. A.İsmiyev; rəs. İ.Məmmədov; Bakı Səyahətlər və Ekskursiyalar Bürosu.- Bakı: Mütərcim, 2006.- 172 s.: foto.

**14.Neft və milyonlar səltənətində** /İ.Musabəyov; tərt. ed. G.Məmmədova.- Təkrar nəşr (1984-cü il nəşri əsasında).- Bakı: Şərq- Qərb, 2006.- 152 s.

**2007**

**15.Bakı tarixindən kollaj.** Birinci kitab /İ.Fəhmi; red. U. Rəhimoğlu; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.- Bakı:Avrasiya Press, 2007.- 192 s. foto.

**16.Çəmbərəkənd düşündürmələri /**M.B.Babayev.- Bakı: OKA Ofset, 2007.- 192 s.: cədv., şək.

## 2008

**17.Bakının qurtuluşu**: (Bakının qurtuluşunun 90 illiyi) / N.Q.Yaqublu; red. S.Məmmədli; rəy. M.Teymur, A.Kənan.- Bakı Adiloğlu, 2008.- 256 s. foto.

## 2009

**18.Eşitdiklərim, oxuduqlarım, gördüklərim /** M.F.Süleymanov; ön söz. M.Xanbabayeva, B.Tahirbəyova.- Bakı: Xəzər, 2009.- 344 s.

**19.Neft fırtınası** /R.S.Qaradağ; red. N.Məmmədov; tərc. ed. M.Ənsərli (Ləmbəli).- Bakı: Qanun, 2009.- 256 s.

**20.Yalana heykəl: "Tarix-ibrət alanlar üçün dərsdir" silsiləsindən** /E.Babayev; rəy. M.Qasımlı; red. M.Talibova.- Bakı: Mütərcim, 2009.- 144 s.

## 2011

**21.H.Z.Tağıyevin qız məktəbinin tarixindən** /F.Cabbarov ; red. N.M.Vəlixanlı; Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyi.- Bakı: Ziya, 2011.- 392 s.: foto, cədv.

## 2012

**22.Bakı şəhərinin tarixi** /S.B.Aşurbəyli; ön söz E.Günaydın; tərc. ed. İ.B.Umudlu.- Bakı: Apostrof, 2012.- 156 s.-Azərbaycan və rus dillərində.

**23.Köhnə Bakı rəssam Elçin Cabarovun gözü ilə.-** Bakı: Altun Kitab, 2012.- 31 s.

## 2013

**24.Bakı kəndlərinə səyahətim** /T.K. Cəbiyeva; red. İ. Əliyev (ön söz) T.K.Cəbiyeva.- Bakı: Şəms, 2013.- 477 s.

**25.Bakı- tarixin səhifələri** /S.U.Dadaşova //E.Ə.Qasımzadə; tərc. ed. T.Kərimova; Azərbaycan Respublikasının Memarlar

İttifaqı.- Bakı: Şərq-Qərb, 2013.- 188 s.-Azərbaycan və ingilis dillərində.

**26.Bakı: 2003-2013: Hədəflər, inkişaf, nəticələr** /Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi.- Bakı: 2013.- 248 s.

**27.Bakıda şəhərsalma XIX əsr və XX əsrin əvvəllərində** / Ş.Fətullayev- Fiqorov; layihə rəhbəri. E.Ə.Qasımzadə; Azərbaycan Respublikası Memarlar İttifaqı.- Bakı: Şərq-Qərb, 2013.- 340 s.-Azərbaycan və rus dillərində.

**28.Bakının memarlıq ensiklopediyası** /Ş.Fətullayev- Fiqarov; red. A.B.Şirəlizadə; layihə rəhbəri. E.Ə.Qasımzadə; Azərbaycan Respublikasının Memarlıq İttifaqı.- Bakı: Şərq- Qərb, 2013.- 528 s.: foto; 23 sm.

**29.Memar İ.K. Pioşko – "İsmailliyə"nin müəllifi** / Ş.Fətulla-yev- Fiqarov; layihə rəhbəri. E.Ə.Qasımzadə; Azərbaycan Respublikasının Memarlar İttifaqı.- Bakı: Şərq-Qərb, 2013.- 64 s.

**2014**

**30.Əliş Ləmbəranski: Ömür yolu. Anımlar** / Ə.Əsədzadə; layihə rəhbəri. Ə. Qarayev; məsl.: Ə.Vəliyev, F.Qurbanov; red. İ.Ləmbəranski, V.Bəhmənli; rəs. Xəyyam; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Renessans, 2014.-326 s.

**2016**

**31.Bakı nefti dünya şahmat taxtasında** /Ç.Sultanov; tərc. ed. Ə.Behbudov.- Bakı: Teas Press, 2016.- 563 s.

**32.Bakı tarixinin ensiklopediyası:** Sara Aşurbəyli-110 il /Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğu İdarəsi. İçərişəhər tarix muzeyi; red. N.Quliyev; hazır. G.Əliyev.- Bakı: Elm və Təhsil, 2016.- 88 s.

# Məqalələr

## 1993

**33.Bakı 14 min yaşında** / Hacı Hacıyev // Xalq qəzeti.- 1993.- 17 mart.- S.2.

## 1998

**34.Qız qalasının sirri** // Xalq qəzeti.-1998.-15 may.

## 2000

**35.Bakı və Qız qalası adlarının mənşəyi** / Kamil Hüseynoğlu // Azərbaycan müəllimi.- 2000.- 18-25 oktyabr.

## 2001

**36.Bakı müasir Avropa şəhəridir** / Mirvari Yaqubzadə // Xalq qəzeti.- 2001.- 13 yanvar.

**37.Yaxın şərqin ilk metrosu** / Tağı Əhmədov // Azərbaycan.- 2001.- 1 avqust.

## 2002

**38.Bakı Duması** / Qılman İlkin // Xalq qəzeti.- 2002.- 22 dekabr.-S.6.

**39.Bakı metrosu** / Bulud Əlişoğlu // Savalan.- 2002.- 20-26 fevral.- S.5.

**40.Dünyamız** / Elvira // Şəkər villası.- 2002.- 16-22 iyul.

**41.Şəhərimizin yeraltı sarayları** / Əlipənah Bayramov və b // Xalq qəzeti.- 2002.- 5 noyabr.-S.3.

**42. Yumurta sarısı ilə tikilən saray** /Aləmara //Savalan.- 2002.-10-16 aprel.

## 2003

**43.Gözəldir İçərişəhər** /Flora Xəlilzadə //Azərbaycan.- 2003.- 5 oktyabr.

**44.XV əsr Şirvanşahlar sarayına səyahət** /Rəşad //Planeta.- 2003.- dekabr.- S.3.

**45.İçərişəhər Bakı mədəniyyətinin beşiyidir** /Təranə Nuriyeva //Xalq qəzeti.- 2003.- 25 aprel.

**46.İçərişəhər beynəlxalq statuslu abidədir/** Pərvanə Sultanova //Xalq qəzeti.- 2003.- 26 fevral.- S.7.

**47.İçərişəhər xalqın milli sərvətidir /**R.Rzalı //Azərbaycan.- 2003.- 1 mart.

**48.Rasim Əliyev: "Tarix tək keçmiş deyil, həm də gələcəkdir"/**Aidə Aysa // Xalq qəzeti.- 2003.- 22 fevral.- S.6.

**49.Sirli Bakı-qədim İçərişəhər-Qız qalası** /Vaqif Bayramov //Xalq qəzeti.- 2003.- 15 may.

## 2004

**50.Bakının tarixi məhəllələri** //Savalan.- 2004.- 21-23 sentyabr.

**51.Həmişə cavanlaşan qocaman Bakı** //Xalq qəzeti.- 2004.- 21 aprel.- S.4.

## 2005

**52.Köhnə Bakı haqqında dastan** /Qılman İkin //Tumurcuq.- 2005.- noyabr.-S.6.

**53.Paytaxtımız müasirliklə tarixi- memarlıq üslubunun vəhdətində daha da zənginləşir** /Mübariz Abdullayev //Xalq qəzeti.- 2005.- 27 oktyabr.- S.5.

**2007**

**54.Bakı-mədəniyyət və incəsənətlə nəfəs alan şəhərdir** /Əbdulqadir əl-İdrisi //Xalq qəzeti.- 2007.- 14 iyun.

**55.Bir dön bizim Bakıya bax** /Vaqif Bayramov, Mirbağır Yaqubzadə //Xalq qəzeti.- 2007.- 24 may.- S.9.

**2008**

**56.Bakı gözəlləşən şəhərdir** /Flora Xəlilzadə //Azərbaycan.- 2008.- 22 avqust.- S.4.

**57.Bakı karvansarayları nadir memarlıq üslubuna malikdir/** Mehparə Sultanova //Mədəniyyət.- 2008.- 15 fevral.- S.7.

**58.Bakı kəndləri** /Flora Xəlilzadə //Azərbaycan.- 2008.- 21 sentyabr.-S.11.

**59.Əzəmətli şəhər-qədim və həmişəcavan Bakı** /Arif Hüseynov //Azərbaycan.- 2008.- 31 may.- S.6.

**60.Gözəl Bakı, göz bəbəyim, paytaxtımsan** /Nərgiz Rüstəmli// Respublika.- 2008.- 1 yanvar.- S.10.

**61.Hamımızın Bakısı** /Akif Cabbarlı //Azərbaycan.- 2008.- 8 avqust.

**62.İçərişəhər** /Röyanə Cəfər //Mədəniyyət.- 2008.- 23 yanvar.- S.3.

**2009**

**63.Bakı gündən günə gözəlləşir** /Zülfüqar Şahsevənli //Respublika.- 2009.- 31 dekabr.- S.7.

**64.Bakı, gözəl şəhər mehriban diyar** /Cəlal //Mədəniyyət.- 2009.- 18 fevral.- S.5.

**65.Dünya şəhərsalma sənətinin nadir incisi sayılan İçərişəhərin master planı hazırdır** /Rəsmiyyə Rzalı // Azərbaycan.- 2009.- 5 iyul.- S.2.

**66.Əbədi alov məbədi** /Mehparə // Mədəniyyət.- 2009.- 8 iyul.- s.1.

**67.Gözəl Bakım, göz bəbəyim, paytaxtımsan** /Nərgiz Rüstəmli //Respublika.-2009.-19 aprel.-S.2.

**68.Qız qalası** /Ülviyyə Vahidqızı //Azərbaycan.- 2009.- 18 oktyabr.- S.6.

**69.Ulu tariximiz** /Cəlal //Mədəniyyət.- 2009.- 18 fevral.- S.6.

**2010**

**70.Bakı hamamları** /Təranə Cəbiyeva //Azərbaycan.- 2010.-11 aprel.- S.7.

**71.Bakının yeni baş planında tarixi memarlıq abidələrinə xüsusi diqqət yetirməliyik** /Novruz Eldarov // Mədəniyyət.-2010.- 24 noyabr.-S.7.

**72.Mikayıl Ağa hamamı** /Təranə Cəbiyeva // Azərbaycan.- 2010 .- 26 may.- S.11.

**2011**

**73.Tikdim ki, izim qala** /Ceyhun // Mədəniyyət.- 2011.- 9 fevral.- S.15.

**2012**

**74.Bakı xanlarının evi** /Mehparə //Mədəniyyət.- 2012.- 18 yanvar.- S.13.

**75.Bizim köhnə şəhərimiz** /Nigar Qazızadə //Yeni Azərbaycan.-2012.- 9 fevral.- S.6.

**76.Şəhərimizin memarlıq incisi** /Rəcəb Məmmədov //Mədəniyyət.- 2012.- 26 dekabr.- S.10.

**77.Bakımız gülə-çiçəyə büründü** /R.Rəsulov //Səs.- 2012.- 11 may.- S.10.

**2013**

**78.Bakı indi dünya mərkəzlərindən biridir** /Vaqif Bayramov //Xalq qəzeti.- 2013.- 17 avqust.- S.8.

**79.Bakının "Mirvari boyunbağı"sı** /Bəşir Şərifli //Azərbaycan.-2013.- 22 avqust.- S.8.

**80.Bakının teatr həyatı** // Mədəniyyət.- 2013.- 23 oktyabr.- S.15.

**2014**

**81.Dənizkənarı bulvar: Bakının əvəzsiz incisi** / Əfqan Şahmarov // Respublika.- 2014.- 17 yanvar.- S.6.

**82.İçərişəhər: dünya mədəni irsinin nadir incisi** / Kamil İbrahimov // Azərbaycan.- 2014.- 20 aprel.- S.7.

**2015**

**83.Tariximizin, mədəniyyətimizin və memarlığımızın incisi** / Elgün Məsimov // Azərbaycan.- 2015.- 1 dekabr.- S.2.

**2016**

**84.Bakının tarixi- İçərişəhər** /Arzu Məmməd Nağıyeva //Respublika.- 2016.- 29 noyabr.- S.12.

**85.Bakının gerbləri** /Kamil İbrahimov //Azərbaycan.- 2016.- 8 oktyabr.- S.7.

**86.Divanxana- Şirvanşahlar saray köşkü** /Cəfər Qiyasi //Azərbaycan.- 2016.- 9 dekabr.- S.11.

**87.İçərişəhərdə yeraltı yollar** / Kamil İbrahimov //Azərbaycan.-2016.- 6 sentyabr.- S.11.

# Rus dilində

## Книги

### 1991

**88.Аллахвердиев, А.** История зеленого строительства города Баку и Апшеронского полуострова /А. Аллахвердиев.- Баку: Ишыг, 1991.-182, [2] с.

### 1992

**89.Ашурбейли, С.** История города Баку: /Сара Ашурбейли .-Москва: 1992.-392 с.

### 2000

**90.Султанов, Ч.** Нефть /Чапай Султанов.- Баку: Нафта-Пресс, 2000. -274, [2] с.-Том I.

### 2007

**91.Каджар, Ч.** Старый Баку /Ч.Каджар; Ред. А.Аббасов.- Баку: ОКА "Офсет", 2007.- 204 с.

### 2010

**92.Агамалиев, Ф.** Бакинство /Ф.М. Агамалиев; ред. Т. Ахмедова; худож. Д. Коротченко.- Москва: МИК, 2010.-126, [1] с.

### 2013

**93.Фатуллаев-Фигаров, Ш.** Архитектурная энциклопедия Баку /Ш. С. Фатуллаев-Фигаров; ред. А. Б. Шираlизаде; рук. проекта Э. Касымзаде; Союз Архитекторов Азерб. Респ.- Баку: [Шарг-Гарб], 2013.- 540, [2] с.

### 2015

**94.Гасымова, Л.** Баку и бакинцы: культура, быт, вкусовые пристрастия и социально-экономическая жизнь второй

половины XX века /Л.Гасымова; отв. ред. за вып. С. Гюльалиева; дизайн О. Оздоган.- Стамбул: 2015.- 224 с.

## Статьи периодической печати

### 2009

**95.Баку - столица исламской культуры** /Севиндж // Зеркало.- 2009. - 21 февраля. - С. 25.

**96.Баку-столица исламской культуры** /Р.Ниязоглу // Каспий.- 2009.- 19 февраля.- С. 1-2.

**97.В Баку завершился Международный фестиваль исламской кулинарии** /С.Исмаил //Ежедневные новости.- 2009. - 16 октября. - С.6.

**98.В Баку обсуждались памятники исламской культуры** // Зеркало.- 2009.- 4 июня.- С. 8.

**99.Год “Баку-столица исламской культуры-2009” обошелся Азербайджану в 4 миллиона манатов** //Эхо.- 2009. - 17 декабря - С.1.

**100.Первая книжная- в Баку** //Азербайджанский конгресс.-2009. - 11 сентября. - С.14.

**101.Проведена официальная церемония закрытия Года культуры «Баку-столица исламской культуры-2009»** // Бакинский рабочий.-2009. - 19 декабря. - С. 2.

**102.**“**Старый Баку” Эльчина Джаббарова** //Бакинский рабочий.-2009.- 13 февраля.- С. 3.

**103.Эпицентр культурных событий. Стартует проект "Баку-столица исламской культуры-2009"** /Л.Багирзаде //Каспий.- 2009.- 18 февраля.- С. 8.

## 2010

**104.Баку-столица исламской культуры-2009** /Л.Джеваншир //Бакинский рабочий.-2010. - 1 января. - С. 4.

## 2011

**105.«Баку, я люблю тебя!»** //Азербайджанский конгресс.- 2011.- 28 января.- С. 16.

**106.«Песни ветра» в Баку** //Каспий.- 2011.- 9 апреля.-С. 12.

## 2014

**107.Мой любимый Баку** //Эхо.-2014.- 21 мая.- С.8.

## 2017

**108.Водное путешествие IV Игр исламской солидарности "Баку-2017" продолжилось в Астаре:** IV Игры исламской солидарности //Бакинский рабочий.- 2017.- 11 апреля.- С. 5.

**109.Представлены медали Игр исламской солидарности "Баку-2017":** IV Игры исламской солидарности //Бакинский рабочий.-2017.- 11 апреля.- С. 5.

**110.Тайны Баку:** история водоснабжения города /О.Буланова //Эхо.- 2017.- 28 января.- С. 5.

**Bakımızı tanıyaq**

Respublika Uşaq kitabxanaları üçün
tövsiyə biblioqrafiyası

**Komputer yığımı
və dizayn:** **Tünzalə Əzizova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: info@clb.az.**
**URL:www.clb.az**

F. Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:
Tirajı:
Pulsuz.